№ 19-20 (827) 31 oktyabr 2025-ci il ◦ Qəzet 1991-ci ildən nəşr olunur ◦ www.health.gov.az; ◦ www.tibbqazeti.az

# TİBB qəzeti

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi



«Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin ictimai səhiyyə sahəsində sanitariya-epidemioloji xarakterli fövqəladə vəziyyətlərin qarşısının alınması və cavab tədbirləri üzrə əməkdaşlığı haqqında Saziş»in təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 2



Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan körpələr evinin işçilərinin əməkhaqlarının artırılması haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI 2



«Tibbi sığorta haqqında» Qanuna dəyişiklik edildi 4

# Azərbaycan Respublikasının Prezidenti Səhiyyə Nazirliyinin tabeliyindəki körpələr evinin işçilərinin əməkhaqlarının artırılması haqqında Sərəncam imzalayıb




Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan körpələr evinin işçilərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə qərara alıram: 2



## Birinci vitse-prezident Mehriban Əliyeva Vatikanın «Bambino Gesu» pediatrik xəstəxanasında olub

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Vatikana səfəri çərçivəsində Avropanın ən böyük pediatrik «Bambino Gesu» xəstəxanasında olub.

Səh. 4

## «İşğaldan azad edilmiş ərazilərdə tibbi xidmətin təşkili» İşçi qrupunun növbəti iclası keçirilib



Səh. 5




## Səhiyyə naziri ÜST-nin Avropa Regional Komitəsinin Daimi Komitəsinə üzv seçilib

*Azərbaycan nümayəndə heyəti qurumun 75-ci sessiyasında iştirak edib*




8

# Azərbaycan - Qazaxıstan sənədləri mübadilə olunub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasına dövlət səfəri çərçivəsində Astanada iki ölkə rəhbərinin iştirakı ilə Azərbaycan - Qazaxıstan sənədlərinin mübadiləsi mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə prezidentlər İlham Əliyev və Kasım-Jomart Tokayev Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında üç sənəd imzalayıblar.

Sonra Azərbaycan - Qazaxıstan sənədləri mübadilə olunub.

O cümlədən «Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Qazaxıstan Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Qazaxıstanın səhiyyə naziri xanım Akmaral Alnazarova mübadilə ediblər.



# Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan körpələr evinin işçilərinin əməkhaqlarının artırılması haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI

«Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan körpələr evinin işçilərinin əməkhaqlarının artırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 4 oktyabr tarixli 736 nömrəli Sərəncamının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan körpələr evinin işçilərinin Vahid Tarif Cədvəli ilə müəyyən olunmuş tarif (vəzifə) maaşlarına aşağıdakı artım əmsalları tətbiq edilsin:

1.1. baş həkim - 3,0 dəfə;

1.2. baş mühasib, həkim-pediatr, musiqi rəhbəri, baş tərbiyəçi, tərbiyəçi, həkim diyetoloq - 2,5 dəfə;

1.3. baş tibb bacısı, böyük tibb bacısı (qardaşı), psixoloq, hüquq məsləhətçisi, mühasib - 2,0 dəfə;

1.4. təsdiq edilmiş mövcud ştat vahidinə uyğun olaraq digər vəzifələr - 1,5 dəfə.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Qərarın 1-ci hissəsindən irəli gələn məsələləri həll etsin.

**3.** Bu Qərar 2025-ci il avqustun 1-dən tətbiq edilir.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**
*Bakı şəhəri, 24 oktyabr 2025-ci il*




# Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan körpələr evinin işçilərinin əməkhaqlarının artırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan körpələr evinin işçilərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan körpələr evinin işçilərinin Vahid Tarif Cədvəli ilə müəyyən olunmuş tarif (vəzifə) maaşlarına 1,5-3 dəfə artım əmsalları tətbiq edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Sərəncamın 1-ci hissəsi ilə müəyyən edilən artım əmsallarının şamil olunacağı işçilərin əhatə dairəsini və görülən işin xüsusiyyətindən asılı olaraq miqdarını müəyyən etsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Bu Sərəncamın 1-ci hissəsi 2025-ci il avqustun 1-dən tətbiq edilir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 4 oktyabr 2025-ci il*

# «Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin ictimai səhiyyə sahəsində sanitariya-epidemioloji xarakterli fövqəladə vəziyyətlərin qarşısının alınması və cavab tədbirləri üzrə əməkdaşlığı haqqında Saziş»in təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının 2022-ci il 28 oktyabr tarixli iclasında imzalanmış «Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin ictimai səhiyyə sahəsində sanitariya-epidemioloji xarakterli fövqəladə vəziyyətlərin qarşısının alınması və cavab tədbirləri üzrə əməkdaşlığı haqqında Saziş» Azərbaycan Respublikasının ona dair müvafiq qeyd-şərti ilə (qeyd-şərtin mətni əlavə olunur) təsdiq edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 30 sentyabr 2025-ci il*

## Səhiyyə nazirinin müavini yeni qurumun üzvü olacaq

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair Komissiya haqqında Əsasnamə»nin və «Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair Komissiyanın tərkibi»nin təsdiq edilməsi barədə Fərman imzalayıb.**

Bu sənədlə təsdiq edilmiş «Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair Komissiyanın tərkibi»nə «Azərbaycan Respublikası səhiyyə nazirinin müavini» bəndi daxil edilib.

Beləliklə, səhiyyə nazirinin müavinlərindən biri həmin Komissiyanın üzvü olacaq.

# Tibb müəssisələrində qida normaları dəyişdirildi

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov «Tibb müəssisələrində, təhsil müəssisələrində və sosial sahəyə aid müəssisələrdə şəxslərin qida normalarının təsdiq edilməsi və «Təhsil müəssisələrində, xəstəxanalarda və sosial sahənin digər ictimai müəssisələrində vətəndaşların qida normalarının tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 9 mart tarixli 103 nömrəli Qərarının ləğv edilməsi barədə» Nazirlər Kabinetinin Qərarını imzalayıb.**

Sənədə əsasən Nazirlər Kabineti «Yaşayış minimumu haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 21 iyun tarixli 217-VIIQD nömrəli Qanununun tətbiqi və «Yaşayış minimumu haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 dekabr tarixli 170 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 iyul tarixli 437 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə üç sənəd - tibb müəssisələrində, təhsil müəssisələrində və sosial sahəyə aid müəssisələrdə şəxslərin orta sutkalıq qida normalarını təsdiq edib.

Eyni zamanda, «Təhsil müəssisələrində, xəstəxanalarda və sosial sahənin digər ictimai müəssisələrində vətəndaşların qida normalarının tətbiq edilməsi haqqında» Nazirlər Kabinetinin 1994-cü il 9 mart tarixli 103 nömrəli Qərarı ləğv olunub.

Maliyyə Nazirliyinə yeni qida normaları nəzərə alınmaqla, müvafiq müəssisələrin bu ildə fəaliyyətinin təşkili üçün zəruri maliyyələşməni təmin etmək tapşırılıb.

Qərara 1 nömrəli əlavədə tibb müəssisələrində xidmət alan şəxslər üçün orta sutkalıq qida normaları, o cümlədən bir yaşadək uşaqlar üçün normalar, 1-18 yaşlı uşaqlar üçün ayrı-ayrılıqda ümumi şöbədə müalicə alan, onların mexaniki və kimyəvi qıcıqlandırıcılardan qorunması üçün olan, eləcə də yüksək və aşağı zülal tərkibli, yüksək və aşağı enerji tərkibli qida normaları, həmçinin 18 yaşdan yuxarı şəxslər üçün sutkalıq qida normaları müəyyən edilib.

Sənəddə qida dəyəri üzrə qida məhsullarının əvəzlənməsi cədvəli də verilib. Həmçinin tibb müəssisələrində şəxslərin qidalanması zamanı istifadə edilməyən məhsullar da göstərilib.

# Nazirlər Kabineti dərman vasitələri ilə bağlı qərarlar qəbul etdi

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov dərman vasitələri ilə əlaqədar Nazirlər Kabinetinin beş qərarını imzalayıb.**



Bu qərarlarla «Əhalinin sağlamlığının qorunması haqqında» və «Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 74-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 20 dekabr tarixli 255 nömrəli Fərmanının müvafiq yarımbəndlərinin icrasını təmin etmək məqsədilə hazırlanmış sənədlər təsdiq olunub.

Beləliklə, Nazirlər Kabinetinin qərarları ilə aşağıdakı sənədlər **təsdiq edilib:**

**1.** «Dərman vasitələrinin beynəlxalq patentləşdirilməmiş adlarının (təsiredici maddələrin adlarının) və tibb vasitələrinin xidmətlər zərfinə daxil edilməsi və ya çıxarılması meyarları və Qaydası».

**2.** «Dərman vasitələrinə əlçatanlığın artırılması və maliyyə risklərinin bölüşdürülməsi haqqında müqavilənin nümunəvi forması və bağlanılması Qaydası».

**3.** «Pozitiv siyahıya daxil olan dərman vasitələrinin şərti kompensasiya məbləğinin hesablanması Qaydası».

**4.** «Ambulator şəraitdə dərman vasitələrinin buraxılması haqqında müqavilə»nin Nümunəvi forması».

**5.** «Dərman vasitəsinin pozitiv siyahıya daxil edilməsi qaydası və meyarları, habelə həmin siyahıdan çıxarılması əsasları».

Bütün təsdiqlənmiş sənədlər qəbul olunmuş qərarlara əlavə edilib.

AZƏRTAC İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin mətbuat xidmətinə istinadən məlumat verib ki, Nazirlər Kabinetinin qəbul etdiyi dərman təminatının tənzimlənməsinə dair bu qərarlar əhalinin dərman vasitələri ilə təminatının yaxşılaşdırılması, tibbi sığorta sistemində şəffaflığın və maliyyə dayanıqlılığının artırılması məqsədi daşıyır.

Bildirilir ki, yeni qaydalar vətəndaşların ambulator şəraitdə (evdə) istifadə olunan əlçatan dərmanların icbari tibbi sığorta hesabına təmin edilməsi ilə bağlı mexanizmin normativ çərçivəsini müəyyən edir.

Qaydalarda dərman vasitələrinin icbari tibbi sığorta hesabına kompensasiya mexanizmi, onların xidmətlər zərfinə daxil edilməsi və çıxarılması meyarları müəyyənləşdirilib. Dərman vasitələrinin pozitiv siyahıya daxil edilməsi meyarlarına dərman vasitəsinin dövlət reyestrində olması, onun keyfiyyətli, təhlükəsiz və effektiv olması, qiymətinin tənzimlənmiş olması və icbari tibbi sığorta fondunun maliyyə imkanlarına uyğun olması daxildir.

Eyni zamanda, bu qaydalar İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin aptek təşkilatları ilə müqavilə mexanizminin formalaşmasına hüquqi əsas yaradır.

Agentliyin yaydığı məlumatda deyilir ki, bu qərarların qəbulu dərman təminatı sisteminin hüquqi və inzibati əsaslarının formalaşdırılması istiqamətində atılan mühüm addımdır. Hazırda icbari tibbi sığorta hesabına dərmanların ambulator şəraitdə qarşılanması istiqamətində zəruri hazırlıq işləri - elektron reseptlərin icbari tibbi sığortanın məlumat bazası ilə inteqrasiyası, apteklərlə əməkdaşlıq mexanizmlərinin qurulması və hesabatlılığın təmin olunması həyata keçirilir. Dərmanlar elektron resept vasitəsilə təyin olunacaq. Bu yolla təyin olunmuş dərman vasitələrini pasiyentlər agentliklə müqaviləsi olan özəl apteklərdən ala biləcəklər.

Pozitiv siyahı icbari tibbi sığorta çərçivəsində ambulator şəraitdə müalicə üçün pasiyentlərə verilən dərman vasitələrinin siyahısıdır. Bu siyahıya daxil olan dərmanların müəyyən edilmiş hissəsi və ya tam dəyəri icbari tibbi sığorta hesabına qarşılanacaq. Pozitiv siyahıda dərman vasitəsinin ticarət adı, beynəlxalq patentləşdirilməmiş adı (təsiredici maddənin adı), dozası, anatomik-terapevtik-kimyəvi kodu, farmasevtik forması, xəstəliyin müalicəsi üçün tətbiq edildiyi XBT-10 (Xəstəliklərin 10-cu Beynəlxalq Təsnifatı) kodu, qablaşdırılma miqdarı, şərti kompensasiya məbləği və müştərək maliyyələşmə məbləği qeyd olunacaq. Pozitiv siyahı hər rübün ilk ayının 15-nə kimi yenilənəcək və yenilənmiş siyahı agentliyin rəsmi internet səhifəsində yerləşdiriləcək.

## Koronavirus xəstələrinə yardım göstərən tibb işçilərinin maaşına əlavənin müddəti uzadılıb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov koronavirus xəstələrinə yardım göstərən tibb işçilərinin əməkhaqqına əlavənin ödənilməsi müddətinin uzadılması ilə bağlı iki Qərar imzalayıb.**

AZƏRTAC xəbər verir ki, birinci sənəd «Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında Qərardır. Bu dəyişikliyə görə, COVID-19-la mübarizə üzrə çalışanların maaşlarına əlavənin müddəti 2026-cı il yanvarın 1-dək uzadılıb.

Qəbul edilmiş ikinci sənədə əsasən, «Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarında dəyişiklik edilib. Yeni qərara görə, adı çəkilən kateqoriyadan olan tibb işçilərinin əməkhaqlarına əlavələr də 2026-cı il yanvarın 1-dək ödəniləcək.

# Birinci vitse-prezident Mehriban Əliyeva Vatikanın «Bambino Gesu» pediatrik xəstəxanasında olub

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Vatikana səfəri çərçivəsində Avropanın ən böyük pediatrik «Bambino Gesu» xəstəxanasında olub.**

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident burada molekulyar-genetika və klinik diaqnostika laboratoriyaları ilə tanış olub.

«Bambino Gesu» pediatrik xəstəxanasının prezidenti Titsiano Onesti Birinci vitse-prezident Mehriban Əliyevaya laboratoriyalar haqqında məlumat verib.





Bildirilib ki, 1869-cu ildə Salviati ailəsi tərəfindən əsası qoyulmuş, Roma şəhərində yerləşən, Müqəddəs Taxt-Tacın ekstraterritorial ərazisi hesab olunan «Bambino Gesu» pediatrik xəstəxanası ilkin olaraq özəl xəstəxana kimi yaradılıb. Bu tibb müəssisəsi uşaq müalicəsi üçün nəzərdə tutulmuş ilk strukturlar arasındadır.

Diqqətə çatdırılıb ki, «Bambino Gesu» pediatrik xəstəxanası İtaliya dövləti tərəfindən maliyyələşdirilən və dövlət xəstəxanası kimi fəaliyyət göstərən qurum olmasına baxmayaraq, Müqəddəs Taxt-Tacın bir müəssisəsidir və birbaşa ona hesabat verir, onun rəhbərliyinə tabedir. 2006-cı ildə xəstəxana “Joint Commission International” tərəfindən akademik xəstəxana kimi akkreditə olunub və hazırda Avropanın ən böyük uşaq xəstəxanası və tədqiqat mərkəzidir.

Qeyd olunub ki, San Paolo filialı xəstəxananın genetik və hüceyrə tədqiqatları üçün ən müasir texnologiyalarla təchiz edilmiş böyük tədqiqat laboratoriyalarının, o cümlədən qabaqcıl müalicə üsullarının tətbiq olunduğu əczaçılıq emalatxanasının mərkəzidir. Burada klinik diaqnozların nəticələri bir daha təsdiqlənmək üçün genetik analizlərlə qarşılaşdırılır, habelə metabolik analizlər sayəsində pasiyentlərə fərdi tibbi yanaşma tətbiq olunur.

Bu il sentyabrın 10-da Heydər Əliyev Fondu, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Müqəddəs Taxt-Tacın «Bambino Gesu» pediatrik xəstəxanası arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

«Bambino Gesu» xəstəxanası ilə qurulan əməkdaşlıq nadir xəstəliklər, molekulyar genetika, klinik diaqnostika və digər müvafiq sahələrin Azərbaycanda inkişafına mühüm töhfə verəcək. Bu tərəfdaşlıq azərbaycanlı alim və tədqiqatçılara qabaqcıl elmi yanaşmalara yiyələnmək və müasir texnologiyalarla təchiz olunmuş laboratoriyalarda araşdırmalar aparmaq imkanı yaradacaq. Nəticədə, ölkəmizdə bu sahələrdə müstəqil elmi tədqiqatlar aparmağa qadir kadr potensialı formalaşacaq, beynəlxalq standartlara cavab verən yeni laboratoriyaların təsis olunması üçün şərait yaranacaq.

Əməkdaşlıq çərçivəsində həmçinin səhiyyə mütəxəssislərimizin təlim və mübadilə proqramlarında iştirakı nəzərdə tutulub.

# «Tibbi sığorta haqqında» Qanuna dəyişiklik edildi

**Oktyabr ayında Milli Məclisin payız sessiyasının bir neçə plenar iclası keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, ilk iclasda «Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 113-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinin müzakirələri zamanı Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov sənəd barədə komitənin müsbət rəyini səsləndirib.

«Tibbi sığorta haqqında» Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov təqdim edib. O, qanun layihəsinin birinci oxunuşunda deputatların qaldırdıqları məsələlərə aydınlıq gətirib. Komitə sədri bildirib ki, qanun layihəsi həbs edilmiş, müəyyən müddətdə azadlıqdan məhrumetmə və ömürlük azadlıqdan məhrumetmə növündə cəza çəkən şəxslərin tibbi müayinəsinin icbari tibbi sığorta çərçivəsində həyata keçirilməsi məqsədilə hazırlanıb. Sənəddə təklif olunan dəyişiklikləri son dərəcə vacib və humanist dəyişikliklər kimi xarakterizə edən komitə sədri bildirib ki, layihənin qəbulu cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslərə göstərilən tibbi xidmətləri yaxşılaşdıracaq.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Payız sessiyasının digər plenar iclasında həmin qanun layihəsi üçüncü oxunuşda müzakirəyə çıxarılıb. Layihəni təqdim edən Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov onun ikinci oxunuşda müzakirəsindən sonra komitəyə hər hansı irad və təkliflərin daxil olmadığını söyləyib, sənədin dəstəklənməsini xahiş edib.

Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

Əmək Məcəlləsində, Mülki Prosessual Məcəllədə, Ailə Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, Mənzil Məcəlləsində, «Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında», «Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında», «Dövlət rüsumu haqqında», «Gənclər siyasəti haqqında», «Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə», «Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında», «Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında», «İnsan alverinə qarşı mübarizə haqqında», «Sosial müavinətlər haqqında», «Əmək pensiyaları haqqında», «Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında», «Bədən tərbiyəsi və idman haqqında», «Təhsil haqqında», «Sosial xidmət haqqında», «Uşaqların icbari dispanserizasiyası haqqında», «Peşə təhsili haqqında», «Əlilliyi olan şəxslərin hüquqları haqqında», «Ümumi təhsil haqqında», «İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında», «Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» 2024-cü il 29 noyabr tarixli 79-VIIQD nömrəli və «Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» 2025-ci il 7 mart tarixli 151-VIIQD nömrəli Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) ilə bağlı Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova məlumat verib. Sənədlərdə bəzi termin dəyişiklikləri nəzərdə tutulur. Komitə sədri deyib ki, qanun layihəsi uşaq hüquqlarının daha da təkmilləşdirilməsinə xidmət edəcək.

Əmək və sosial siyasət, Hüquq siyasəti və dövlət quruculuğu, İqtisadi siyasət, sənaye və sahibkarlıq, Gənclər və idman, İnsan hüquqları, Elm və təhsil və Səhiyyə komitələrinin sədrləri sənədlə bağlı rəhbərlik etdikləri komitələrin müsbət rəylərini diqqətə çatdırandan sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

# «İşğaldan azad edilmiş ərazilərdə tibbi xidmətin təşkili» İşçi qrupunun növbəti iclası keçirilib



**Səhiyyə Nazirliyində Azərbaycanın işğaldan azad edilmiş ərazilərində tibbi xidmətin təşkili ilə bağlı səhiyyə naziri Teymur Musayevin müvafiq əmri ilə yaradılmış İşçi qrupun növbəti iclası olub.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, səhiyyə naziri Teymur Musayevin sədrliyi və aidiyyəti üzrə dövlət qurumlarının iştirakı ilə keçirilən növbəti iclasda «Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı» çərçivəsində təşkil olunmuş tibbi xidmət və mövcud vəziyyət müzakirə edilib.

Eyni zamanda, işğaldan azad olunmuş ərazilərdə yaşayan əhali üçün tibbi xidmətlərin keyfiyyətinin və onlara əlçatanlıq səviyyəsinin artırılması, səhiyyə infrastrukturunun qurulması, müasir avadanlıqlarla təchizat və kadr hazırlığı ilə bağlı yanaşmalar müzakirə olunub, vahid strategiyanın hazırlanması istiqamətində fikir mübadiləsi aparılıb.

Həmçinin işğaldan azad edilmiş ərazilərdə məskunlaşmaya uyğun olaraq «Böyük Qayıdışa dair II Dövlət Proqramı» çərçivəsində əhaliyə əhatəli, əlçatan və keyfiyyətli tibbi xidmətin göstərilməsi üçün tibbi xidmətin planlaşdırılması, strateji hədəflər və fəaliyyət istiqamətində müzakirələr aparılıb, növbəti addımlar müəyyənləşdirilib və müvafiq tapşırıqlar verilib.

## Gəncədə üç tibb müəssisəsi ləğv edilib

**Səhiyyə Nazirliyinin Gəncə şəhərində yerləşən üç tibb müəssisəsi ləğv olunub.**

Oxu.Az «Yeni Sabah»a istinadla xəbər verir ki, bu barədə səhiyyə naziri Teymur Musayev əmr imzalayıb.

Əmrə əsasən, Gəncə Şəhər Təsərrüfat hesablı Ailə və Nikah Məsləhətxanası, Gəncə Şəhər Təsərrüfat hesablı Reproduktiv Sağlamlıq və Ailə Planlaması Mərkəzi, Gəncə Şəhər Körpələr Evi ləğv edilib.

Bu məqsədlə ləğvetmə komissiyası yaradılıb və adıçəkilən müəssisələrin bütün maliyyə, hüquqi və təşkilati məsələlərinin tənzimlənməsi üçün fəaliyyətə başlanılıb.

Müəssisələrin kreditorları mövcud borc tələblərini təqdim etməlidirlər. Debitorlar isə borclarını tam şəkildə ödəməlidirlər.

# Ombudsman yanında «Psixi sağlamlıq və insan hüquqları» sahəsində İşçi Qrupun ilk iclası keçirilib

**10 Oktyabr - Ümumdünya Psixi Sağlamlıq Günü ərəfəsində Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) yanında Psixi sağlamlıq və insan hüquqları sahəsində İşçi Qrupun ilk iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman), Psixi sağlamlıq və insan hüquqları sahəsində İşçi Qrupun rəhbəri Səbinə Əliyeva, Azərbaycan Tibb Universitetinin rektoru professor Gəray Gəraybəyli, Milli Məclisin deputatı Məlahət İbrahimqızı, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun kafedra müdiri professor Teymur Qafarov, Azərbaycan Psixiatriya Assosiasiyasının prezidenti professor Nadir İsmayılov, ekspertlər, vətəndaş cəmiyyəti təsisatlarının və media subyektlərinin nümayəndələri iştirak ediblər.



İclasda çıxış edən ombudsman Səbinə Əliyeva psixi sağlamlıq hüququnun insanın tibbi yardım almaq, stiqma və ayrı-seçkilikdən qorunmaq, təhlükəsiz və inklüziv mühitdə yaşamaq imkanlarını özündə birləşdirdiyini qeyd edib. Müvəkkil vurğulayıb ki, beynəlxalq sənədlərdə psixi sağlamlıq hüququ anlayışı geniş yer alır və bu istiqamətdə beynəlxalq prinsiplərdən istifadə etməklə ölkəmizdə hüquqi bazanın və praktiki mexanizmlərin təkmilləşdirilməsi zəruridir.

Səbinə Əliyeva Ombudsman təsisatının psixi sağlamlıq hüququnun təmin olunması sahəsində həyata keçirdiyi fəaliyyət barədə məlumat verib. O, psixiatriya müəssisələrinə mütəmadi başçəkmələrin həyata keçirildiyini, mövcud vəziyyətin yaxşılaşdırılması, əhalinin hüquqlarının daha səmərəli müdafiəsi məqsədilə müvafiq dövlət qurumlarına təkliflər təqdim olunduğunu bildirib.

Ombudsman qeyd edib ki, yaradılmış Psixi sağlamlıq və insan hüquqları sahəsində İşçi Qrup bu istiqamətdə mütəxəssisləri bir araya gətirməklə, psixi sağlamlıq problemlərinin həlli, dövlət qurumları ilə əməkdaşlığın möhkəmləndirilməsi və səmərəli fəaliyyətin təmin edilməsi baxımından mühüm platforma rolunu oynayacaq.

Səbinə Əliyeva vurğulayıb ki, psixi sağlamlıq və insan hüquqları sahəsində qarşıda duran vəzifələrin icrası çoxşaxəli əməkdaşlıq tələb edir və bu məsələlərin həlli yalnız bir qurumun səlahiyyətləri çərçivəsində mümkün deyil. Onun sözlərinə görə, yeni formalaşdırılan İşçi qrupun yaradılmasında məqsəd dövlət qurumları, mütəxəssislər və vətəndaş cəmiyyəti institutları arasında səmərəli əməkdaşlıq platforması qurmaq, bu sahədə insan hüquqlarının müdafiəsini gücləndirmək, həmçinin hüquqi və institusional mexanizmləri təkmilləşdirməkdir: «İşçi qrupunun tərkibinə deputatlar, ali təhsil müəssisələrinin rəhbərləri, beynəlxalq təşkilatların və müxtəlif dövlət qurumlarının nümayəndələri, vətəndaş cəmiyyəti institutlarının təmsilçiləri, psixi sağlamlıq üzrə təcrübəli ekspertlər və Ombudsman Aparatının əməkdaşları daxildir. Məhz bu cür geniş tərkibin müəyyən olunması məsələyə kompleks yanaşmanı təmin edir. Psixi sağlamlıq sahəsində qarşıya qoyulan məqsədlərə hökumət, parlament, akademik qurumlar, səhiyyə sistemi, vətəndaş cəmiyyəti və media nümayəndələrinin birgə fəaliyyəti nəticəsində nail olmaq mümkündür», - deyə ombudsman vurğulayıb.

O qeyd edib ki, builki Ümumdünya Psixi Sağlamlıq Gününün mövzusu olan «Fövqəladə hallar və böhranlar zamanı psixi sağlamlıq xidmətlərinə çıxış» yanaşması müharibə, təbii fəlakət, pandemiya və digər fövqəladə vəziyyətlər zamanı psixoloji dəstək xidmətlərinin əlçatanlığını insan hüquqlarının tərkib hissəsi kimi ön plana çıxarır. Belə hallarda insanların yaşadığı stres, travma və qorxunun onların həyat keyfiyyətinə uzunmüddətli təsir göstərməsi xüsusi diqqət tələb edir. «Bu mövzu, təəssüf ki, bizim cəmiyyət üçün son dərəcə aktualdır. Ölkəmiz Birinci və İkinci Qarabağ müharibələrinin ağır nəticələrini yaşamışdır. Müharibələr yalnız fiziki dağıntılarla bitmir, onların mənəvi və psixi təsirləri uzun illər davam edən yaralar qoyur. Köçkünlük, itkilər, əsirlik halları, partlayıcı qalıqların yaratdığı təhlükələr, ailə və icma bağlarının zədələnməsi minlərlə vətəndaşımızın psixi vəziyyətinə mənfi təsir göstərmişdir», - deyə Ombudsman bildirib.

O əlavə edib ki, müharibə və postmüharibə dövründə zərərçəkmiş şəxslərə, onların ailə üzvlərinə və yaxınlarına mütəxəssislər tərəfindən psixoloji və tibbi dəstək göstərilməsi məqsədilə Ombudsmanın təşəbbüsü ilə ölkənin müxtəlif bölgələrində - Gəncə, Şəki, Ağstafa və Lənkəranda xüsusi aksiyalar təşkil olunub.

«Psixi sağlamlıq yardımı müharibədən sonrakı bərpa prosesinin mühüm tərkib hissəsidir. Ombudsman olaraq, qazilərin və şəhid ailələrinin psixososial reabilitasiyasını daim diqqətdə saxlayır və bu istiqamətdə fəaliyyətin daha da gücləndirilməsini tövsiyə edirik. Böhran anlarında hər bir şəxs psixoloji yardım və reabilitasiya imkanlarına çıxış əldə etməlidir, heç kəs bu prosesdən kənarda qalmamalıdır», - deyə Səbinə Əliyeva vurğulayıb.

İclasda çıxış edən iştirakçılar psixi sağlamlıq sahəsində insan hüquqlarının qorunması istiqamətində Ombudsman təsisatının fəaliyyətinin mühüm əhəmiyyət daşıdığını vurğulayıblar. Cəmiyyətin maarifləndirilməsi, stiqma və stereotiplərin aradan qaldırılması, tibbi xidmətə əlçatanlığın artırılması, eləcə də psixi sağlamlıq sistemində mövcud problemlərin həlli üzrə təklif və tövsiyələr səsləndirilib.

Sonda iclasın yekunları üzrə qərarlar qəbul edilib.

# Akademik Mustafa Topçubaşovun anadan olmasının 130 illiyinə həsr edilmiş yubiley tədbiri keçirilib

**Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) və Səhiyyə Nazirliyinin birgə təşkilatçılığı ilə AMEA-nın Rəyasət Heyətində görkəmli alim və cərrah, ictimai-siyasi xadim, tibb elmləri doktoru, akademik Mustafa Topçubaşovun anadan olmasının 130 illiyinə həsr edilmiş yubiley tədbiri keçirilib.**

Tədbirdə AMEA-nın, Səhiyyə Nazirliyinin, Milli Məclisin Səhiyyə Komitəsinin rəhbər şəxsləri, AMEA-nın Rəyasət Heyətinin və Biologiya və tibb elmləri bölməsinin üzvləri, Səhiyyə Nazirliyinin, AMEA-nın və Elm və Təhsil Nazirliyinin bir sıra elmi müəssisələrinin direktorları, Azərbaycan Tibb Universitetinin, Mərkəzi Klinikanın və M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin nümayəndələri, həmçinin akademik Mustafa Topçubaşovun ailə üzvləri iştirak ediblər.

Əvvəlcə konfrans iştirakçıları Fəxri xiyabanda Mustafa Topçubaşovun məzarını ziyarət edib, xatirəsini ehtiramla yad ediblər.

Daha sonra AMEA-nın Rəyasət Heyətinin binasında akademik Mustafa Topçubaşovun həyat və fəaliyyətini əks etdirən sərgiyə baxış keçirilib.

Tədbiri giriş sözü ilə açan AMEA-nın prezidenti akademik İsa Həbibbəyli ölkə Prezidenti İlham Əliyevin «Akademik Mustafa Topçubaşovun 130 illiyinin qeyd edilməsi haqqında» Sərəncamından irəli gələrək Azərbaycan Milli Elmlər Akademiyası və Səhiyyə Nazirliyinin birgə tədbirlər həyata keçirdiyini söyləyib. Qeyd edib ki, ilkin olaraq iyul ayında hər iki qurumun birgə təşkilatçılığı ilə elmi konfrans keçirilib, bu günlərdə isə Səhiyyə Nazirliyi tərəfindən təşkil olunmuş beynəlxalq elmi-praktik konfrans baş tutub. Həmçinin müvafiq Tədbirlər planına uyğun olaraq, AMEA tərəfindən akademik Mustafa Topçubaşovun biblioqrafiyasının yenidən nəşr edildiyi diqqətə çatdırılıb.

Mustafa Topçubaşovun qeyri-adi fitri istedada malik insan olduğunu deyən akademik İsa Həbibbəyli onun böyük nüfuza malik, xalqın inandığı, təbabətin bütün sirlərini bilən və bir çox istiqamətdə fəaliyyət göstərən, cərrahiyyənin loğmanı olduğunu deyib. Bildirib ki, praktiki cərrahlıq elmi məktəbinin yaradıcısı kimi alimin nailiyyətləri ona həm Azərbaycanda, həm keçmiş SSRİ-də, həm də dünya səviyyəsində böyük şöhrət qazandırıb.

Mustafa Topçubaşovun praktiki cərrahiyyə fəaliyyəti ilə yanaşı, həm də elmi tədqiqatlarla dərindən məşğul olduğunu deyən AMEA rəhbəri alimin beş cildlik «Xüsusi cərrahlıq» kitabının bu gün də ali təhsil müəssisələrində tələbələrin dərs vəsaiti kimi istifadə edildiyini bildirib.

Akademik Mustafa Topçubaşovun elmi-təşkilati fəaliyyətindən danışan akademik İsa Həbibbəyli bildirib ki, o, 1945-ci ildə AMEA-nın təsisçilərindən biri olub və akademik seçilib, Biologiya elmləri bölməsinin akademik-katibi, Azərbaycan SSR EA-nın vitse-prezidenti vəzifələrində çalışıb. Həmçinin 50 ilə yaxın bir müddətdə Azərbaycan Tibb Universitetinin Cərrahiyyə kafedrasının müdiri kimi peşəkar kadrların hazırlanmasında müstəsna xidmətləri olub.

Alimin Azərbaycan SSR Ali Sovetinin sədri və üzvü kimi ölkəmizin ictimai-siyasi həyatında yaxından iştirak etdiyini deyən akademik İsa Həbibbəyli qeyd edib ki, xaraktercə sülhsevər, yüksək insani dəyərlərə malik alim həm də Respublika Sülhü Müdafiə Komitəsinin sədri olub.






Sonra Mustafa Topçubaşovun həyat və fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

Tədbirdə çıxış edən səhiyyə naziri Teymur Musayev qeyd edib ki, akademik Mustafa Topçubaşov təkcə öz dövrünün deyil, Azərbaycan səhiyyə və tibb elminin tarixində adı əbədi həkk olunmuş alimdir. O qeyd edib ki, Mustafa Topçubaşov dövrün elm mərkəzlərindən sayılan Kiyev Universitetinin Tibb fakültəsini bitirmiş, intensiv praktik fəaliyyəti ilə yanaşı, elmi araşdırmalara böyük maraq göstərmişdir. Onun uzun müddət cərrahi ağrısızlaşdırma problemi üzərində işlədiyini deyən Teymur Musayev bildirib ki, bu sahədə apardığı elmi axtarışlar Mustafa bəyə 1938-ci ildə cərrahlıq praktikasına yeni, nisbətən təhlükəsiz keyləşdirmə metodonu - inyeksion efir-yağ narkozunu daxil etməyə imkan vermişdir. «1945-ci ildə SSRİ Xalq Səhiyyə Komissarlığının Elmi-Tibbi Şurasının Farmakologiya Komitəsinin iclasında efir-yağ qarışığının «Analgezin» adı altında istehsal edilməsinə icazə verilmişdir. Bu metodun kəşfi və tətbiqi ilə əlaqədar olaraq A.Vişnevski adına mükafata və diploma layiq görülmüşdür. Hərbi-səhra cərrahlığının aktual problemlərindən olan insan bədəninə daxil olmuş metal yad cismin lokalizasiyası və onun xaric edilməsi problemi üzərində çalışan alimin konstruksiya etdiyi stereoskop aparatı portativliyinə və yad cismin lokalizasiyasını dəqiq təyinetmə imkanına görə müvəffəqiyyətlə təcrübədə tətbiq edilib», - deyə nazir diqqətə çatdırıb.

Teymur Musayev vurğulayıb ki, akademikin tibb elmində irəli sürdüyü yeniliklərdən biri də borulu sümüklərin sınıqlarının təxirəsalınmaz osteosintezi üsuludur. Eyni zamanda, Topçubaşov dalaq, qaraciyər, böyrək, böyrəküstü vəzi kimi həyati orqanlara abdomino-diafraqmal və bel-diafraqmal yollarla müdaxilənin müəllifi olaraq, urologiya, travmatologiya, neyrocərrahiyyə, abdominal və torakal cərrahiyyə sahələrində mühüm yeniliklərə imza atmışdır.

Mustafa Topçubaşovun genişmiqyaslı elmi-pedaqoji fəaliyyətlə də məşğul olduğunu və yüksəkixtisaslı həkim kadrların hazırlanmasında böyük xidmətlər göstərdiyini deyən nazir onun layihəsi üzrə kafedrada tələbələrə cərrahi müdaxilənin bütün gedişatını izləməyə imkan verən operasion auditoriyanın təşkil edildiyini vurğulayıb. Bildirib ki, onun qələmə aldığı beş cildlik «Xüsusi cərrahlıq» dərsliyi faktiki materiallar, elmi əsaslandırmalar və əhatəli təsvirləri ilə elmi ictimaiyyətin diqqətini cəlb edib.

«Mustafa Topçubaşovun xatirəsini əbədiləşdirmək üçün Bakı şəhərində və bölgələrdə küçələr onun adı ilə adlandırılıb. Haqqında filmlər çəkilib, adına poçt markası buraxılıb. Bakıda onilliklər boyu əhaliyə yüksək keyfiyyətli tibb xidməti göstərən Elmi Cərrahiyyə Mərkəzi onun adını daşıyır. Səhiyyə Nazirliyinin Akademik M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin əsaslı təmirdən və yenidənqurmadan sonra açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəxsən iştirak etmişlər. Topçubaşovun ömür yolu bu gün cərrahlığı məslək seçən, cərrahiyyə elmini həyat yolu seçən gənc nəsil üçün böyük alimlik və insanlıq məktəbidir. Həkimlik peşəsini özünə əqidə seçən hər bir kəs ömründə bircə dəfə də olsun Mustafa bəylə çiyin-çiyinə durmaq, elmi təfəkküründən bir zərrə alıb parlamaq arzusunda olmuşdur», - deyə Teymur Musayev qeyd edib.

Nazir dünya tibb elminin inkişafında əvəzsiz rol oynamış akademik Mustafa Topçubaşovun zəngin irsinin və əziz xatirəsinin ölkəmizin ictimaiyyəti tərəfindən daim hörmət və minnətdarlıqla yad edildiyini bildirib.

Sonra çıxış edən Milli Məclisin Səhiyyə Komitəsinin sədri akademik Əhliman Əmiraslanov qeyd edib ki, Azərbaycan xalqını dünyada tanıdan, şöhrət gətirən insanların yubileylərinin keçirilməsi gözəl ənənəyə çevrilib. Bu ənənənin əsasını Ulu Öndər Heydər Əliyev qoyub və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Əhliman Əmiraslanov bildirib ki, alimin həyatına nəzər saldıqda «ilk olaraq», «ilk dəfə» sözlərinin onu xarakterizə etdiyinin şahidi oluruq. Natiq diqqətə çatdırıb ki, Topçubaşov Kiyev Universitetinin Tibb fakültəsində təhsil almış ilk azərbaycanlı alim, ilk milli azərbaycanlı cərrah, BDU-nun Tibb fakültəsində cərrahiyyəni tədris edən və kafedra müdiri olan ilk azərbaycanlı şəxsdir: «Topçubaşov müharibə dövründə ilk dəfə ixtisaslı hospital təşkil etmiş, soydaşlarımızı xilas etmişdir. Həmçinin o, «Stalin» mükafatını alan ilk azərbaycanlı həkimdir».

Onun geniş və çoxşaxəli fəaliyyətində İrəvan mühitinin böyük rolu olduğunu deyən Əhliman Əmiraslanov İrəvan Kişi Gimnazisyasının bir çox tanınmış xadimlərimizi - Əziz Əliyev, Heydər Hüseynov, Əhməd Rəcəbov, Səid Rüstəmov, Həsən Seyidov və başqalarını yetişdirdiyini bildirib.

Topçubaşovun böyük elmi məktəb yaratdığını, onun yetirmələrinin bu gün də Azərbaycan cərrahiyyəsinə öz töhfələrini verdiyini xatırladan akademik Əhliman Əmiraslanov alimlə bağlı xatirələrini də bölüşüb.

Daha sonra AMEA-nın vitse-prezidenti akademik İradə Hüseynova «Akademik Mustafa Topçubaşovun elmi və elmi-təşkilati fəaliyyəti haqqında» məruzə ilə çıxış edib.

Tədbirdə həmçinin Azərbaycan Tibb Universitetinin rektoru professor Gəray Gəraybəyli, Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, millət vəkili Əziz Ələkbərli və ATU-nun Akademik M.Topçubaşov adına III Cərrahi xəstəliklər kafedrasının doktorantı Hilalə Abbasova çıxış edərək akademik Mustafa Topçubaşovun Azərbaycan tibb elminə, səhiyyəsinə, yüksəkixtisaslı kadr hazırlığı işinə verdiyi töhfələrdən danışıblar.

Sonda Topçubaşovlar ailəsi adından Mərkəzi Klinikanın baş direktorunun müavini, Əməkdar həkim Ceyhun Topçubaşov çıxış edib, atasının xatirəsinə göstərilən ehtirama görə dövlət başçısına, həmçinin tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirib.

# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sağlamlıq mərkəzləri ilə tanışlıq olub










**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) "Buzovna" fizioterapiya, «Bilgəh» kardioloji və «Abşeron» mədə-bağırsaq təyinatlı sağlamlıq mərkəzlərinə əlaqədar təşkilatların rəhbər şəxslərinin iştirakı ilə baxış keçirilib.**

Bu barədə Səhiyyə Nazirliyinin mətbuat xidmətinin yaydığı xəbərə görə, səhiyyə naziri Teymur Musayevin də iştirak etdiyi tədbirdə məlumat verilib ki, konfederasiya tərəfindən sağlamlıq-istirahət mərkəzlərində müasir və rahat şərait yaradılır. «Buzovna», «Bilgəh» və «Abşeron» sağlamlıq mərkəzlərində də şərait yaxşılaşdırılıb, obyektlər ən müasir tibbi avadanlıqlarla təchiz edilib.

Eyni zamanda, mərkəzlərdəki tibbi laboratoriyalar, müalicə və istirahət sahələri, tibbi xidmətlərin təşkili, istifadə edilən müasir avadanlıqlar və reabilitasiya prosedurları ilə tanışlıq olub. Vurğulanıb ki, mərkəzlərdə müalicə və reabilitasiya üçün müasir tibbi texnologiyalar tətbiq edilir.

Yollayışların verilməsi ilə bağlı isə qeyd edilib ki, proses e-ahik elektron rezervasiya sistemi vasitəsilə həyata keçirilir. Sistem insan təması olmadan, sürətli və şəffaf şəkildə müraciət və qeydiyyat imkanı yaradır ki, bu da xidmətlərin əlçatanlığını və vətəndaş məmnuniyyətini əhəmiyyətli dərəcədə artırır.

Səhiyyə naziri Teymur Musayev konfederasiyanın sağlamlıq mərkəzlərində yaradılmış şəraiti, müasir tibbi avadanlıqlarla təchizatı, tibbi heyətin peşəkarlığını və göstərilən xidmətlərin keyfiyyətini yüksək dəyərləndirib. Nazir həmçinin kadr hazırlığı və birgə layihələrin icrası istiqamətində AHİK ilə əməkdaşlığın genişləndirilməsi barədə fikirlərini bölüşüb.

# Azərbaycan və İsrail arasında səhiyyə sahəsində əməkdaşlığın perspektivləri müzakirə olunub



**Azərbaycan Respublikasının Səhiyyə Nazirliyində İsrail Dövlətinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Ronen Krausz ilə görüş keçirilib.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, görüş zamanı Azərbaycan və İsrail arasında səhiyyə sahəsində əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub. Tərəflər tibb elmi, mütərəqqi texnologiyaların tətbiqi, kadr hazırlığı və səhiyyə sistemində rəqəmsallaşma istiqamətlərində birgə layihələrin həyata keçirilməsinin əhəmiyyətini vurğulayıblar.

Azərbaycanın səhiyyə naziri Teymur Musayev İsrailin səhiyyə sistemində tətbiq olunan qabaqcıl təcrübənin ölkəmiz üçün maraqlı olduğunu qeyd edib, bu sahədə təcrübə mübadiləsinin genişləndirilməsinin vacibliyini bildirib. Xüsusilə tibb təhsili, xəstəxanalarının idarə edilməsi, teletibb, əczaçılıq, tibbi texnologiyalar və tibbi turizm kimi sahələrdə qarşılıqlı faydalı layihələrin həyata keçirilməsi, habelə iki ölkənin aparıcı tibb mərkəzləri və elmi tədqiqat institutları arasında birbaşa əlaqələrin genişləndirilməsi üçün böyük imkanların mövcudluğu qeyd olunub.

Səfir Ronen Krausz öz növbəsində İsrail ilə Azərbaycan arasında dostluq və tərəfdaşlıq münasibətlərinin yüksələn xətlə inkişaf etdiyini, səhiyyə sahəsində əməkdaşlığın da bu münasibətlərin mühüm tərkib hissəsi olduğunu vurğulayıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan ilə Türkmənistan arasında səhiyyə sahəsində əməkdaşlıq imkanları müzakirə olunub



**Azərbaycanın Səhiyyə Nazirliyində Türkmənistan Prezidenti yanında Arxadağ şəhərinin inşası üzrə Dövlət Komitəsinin sədri Deryageldi Orazov ilə görüş keçirilib. Füzuli şəhərində məscidin təməlqoyma mərasimində iştirak məqsədilə ölkəmizə səfər çərçivəsində keçirilən görüşdə Türkmənistanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Qurbanməmmet Elyasov da iştirak edib.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, səhiyyə naziri Teymur Musayev Azərbaycan və Türkmənistan arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən səhiyyə sahəsində uğurla inkişaf etdiyini deyib. Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə səhiyyə sistemində uğurlu islahatların həyata keçirildiyini vurğulayan nazir infrastruktur layihələri və tibbi xidmətlərin keyfiyyətinin artırılması istiqamətində görülən tədbirlər barədə məlumat verib.

Sonda Azərbaycanın səhiyyə naziri ölkələrimiz arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlığın daha da dərinləşdirilməsinin əhəmiyyətini qeyd edib.

Səmimi qəbula görə təşəkkürünü bildirən Deryageldi Orazov Türkmənistanda Arxadağ şəhərinin qurulması zamanı səhiyyə infrastrukturu ilə bağlı həyata keçirilən layihələr barədə məlumat verib və bu istiqamətdə təcrübə mübadiləsinin faydalı olacağını qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər, o cümlədən gələcək əməkdaşlıq imkanları müzakirə olunub.

# Səhiyyə naziri ÜST-nin Avropa Regional Komitəsinin Daimi Komitəsinə üzv seçilib

## *Azərbaycan nümayəndə heyəti qurumun 75-ci sessiyasında iştirak edib*

**Danimarkanın paytaxtı Kopenhagen şəhərində Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa Regional Komitəsinin 75-ci sessiyası keçirilib. Sessiyada ÜST-nin Avropa regionunda ali idarəetmə orqanı olan Regional Komitənin 53 üzv dövlətinin səhiyyə nazirləri, beynəlxalq təşkilatların nümayəndələri və digər rəsmilər iştirak ediblər.**




Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirildiyinə görə, tədbirdə ölkəmiz səhiyyə naziri Teymur Musayevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunub.





Tədbirin açılışında ÜST-nin Baş direktoru Tedros Adhanom Gebreyesus qlobal səhiyyənin cari problemlərini qeyd edib, Təşkilat tərəfindən bu çatışmazlıqların aradan qaldırılması istiqamətində həyata keçirilən işlər haqqında danışıb.

ÜST-nin rəsmi saytı xəbər verir ki, toplantıya onlayn qoşulan Baş direktor ümumilikdə Avropa regionunda və bölgənin hər bir ölkəsində qeyd edilməli uğurların və həll olunmalı çətinliklərin olduğunu söyləyib: «Səhiyyə xidmətləri ilə ümumi əhatələnməyə gəldikdə, ölkələrin xidmətlə əhatə dairəsini, maliyyə müdafiəsini, dərmanlara və immunizasiyaya çıxışı genişləndirmək üçün addımlar atması, eyni zamanda, ilkin səhiyyə xidmətini, səhiyyə işçi qüvvəsini və tibbi xidmətin keyfiyyətini gücləndirməsini görmək sevindirici haldır. Sağlamlığın və rifahın təşviqi baxımından, yoluxucu və qeyri-yoluxucu xəstəliklərə, iqlim dəyişikliyinə, antimikrob müqavimətinə və digər məsələlərə yenidən diqqət yetirilir».

Tedros Gebreyesus effektiv və səmərəli fəaliyyətinə görə Regional Ofisin işini çox yüksək qiymətləndirdiyini söyləyib.

Öz növbəsində ÜST-nin Avropa üzrə regional direktoru Hans Henri Klüge beynəlxalq qurumun ötən sessiyadan indiyədək gördüyü işlərə dair məlumat verib.

Ardınca ÜST-nin Avropa Regional Komitəsinin sessiyasının gündəliyi müzakirəyə təqdim olunub. Gündəliyə ÜST-nin növbəti beşillik üçün «Avropa İş Proqramı 2026-2030» sənədinin müzakirəsi, idarəetmə orqanlarına seçkilər və strateji səhiyyə təşəbbüslərinin təsdiqi kimi mühüm məsələlər daxil edilib.

2026-2030-cu illəri əhatə edən İkinci «Avropa İş Proqramı» (AİP-2) ÜST Avropa Regional Bürosu və ÜST-nin Avropa regionuna daxil olan üzv-dövlətlər tərəfindən geniş məsləhətləşmələr çərçivəsində birgə hazırlanıb. Sənəd iki məqsəd güdür: ölkələri və partnyorları ən aktual səhiyyə problemlərinin həlli üzərində iş zamanı strateji baxışla və «sağlamlıq kompası» ilə təmin etmək; ÜST Avropa Regional Bürosunun səhiyyənin inkişafı üzrə beşillik fəaliyyət planını təqdim etmək.

### «Avropa İş Proqramı» Azərbaycan səhiyyəsinin gələcək istiqamətlərinə uyğundur

Daha sonra Regional Komitənin üzv dövlətlərinin səhiyyə nazirləri və digər rəsmilər çıxış ediblər.

Sessiyada çıxış edən Azərbaycan nümayəndə heyətinin rəhbəri, səhiyyə naziri Teymur Musayev vurğulayıb ki, Azərbaycan Səhiyyə Nazirliyi Ümumdünya Səhiyyə Təşkilatının Avropa Regional Bürosunun gələcəyin sağlamlıq sistemini formalaşdırmaq məqsədilə təşəbbüslərini və üzv dövlətlərin milli səhiyyə sistemlərinin transformasiyasını dəstəkləməsini yüksək qiymətləndirir. O bildirib ki, «Avropa İş Proqramı»nda müəyyən edilmiş üç əsas prioritet Azərbaycanın milli səhiyyə sisteminin gələcək istiqamətləri ilə uyğundur.

Prezident cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda son illər milli səhiyyə sisteminin gücləndirilməsi, insan kapitalının inkişafı və səhiyyənin rəqəmsallaşdırılması istiqamətində mühüm işlərin görüldüyünü diqqətə çatdıran nazir deyib: «Vətəndaşların sağlamlığının qorunması və sosial rifahının yüksəldilməsi Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf strategiyasinin əsas prioritetlərindən biri kimi müəyyən edilib. Vətəndaşların uzunömürlülüyünün artmasını nəzərə alaraq, sağlamlıq prioritet məsələ olaraq qalmalıdır».

Müasir zamanda süni intellektin, iri həcmli məlumatların və rəqəmsal həllərin səhiyyə xidmətlərinin inkişafında mühüm rol oynadığını bildirən Teymur Musayev deyib: «Bu texnologiyaların potensialından tam şəkildə istifadə etmək üçün süni intellektin qanunvericilik çərçivələrinə daxil edilməsi, onun məsuliyyətli və etik istifadəsi vacib məsələdir. Bununla belə, rəqəmsal alətlər insan əməyini əvəz etməməli, əksinə, fəaliyyətlərdə tamamlayıcı rol oynamalıdır».

Tədbirdə Azərbaycanın səhiyyə naziri Teymur Musayev 2025-2028-ci illər üçün ÜST-nin Avropa üzrə Regional Komitəsinin Daimi Komitəsinə (SCRC) üzv seçilib.

Azərbaycan nümayəndəsinin Komitəyə üzv seçilməsi ölkəmizin səhiyyə sahəsində uğurlarının tanınmasıdır, eyni zamanda, onun beynəlxalq səhiyyə siyasətində rolunun daha da güclənməsinə və ÜST-nin Avropa regionunda qəbul edilən qərarların formalaşmasında iştirakının təmin olunmasına şərait yaradacaq.

### İkitərəfli görüşlər

Azərbaycanın səhiyyə naziri ÜST-nin Avropa Regional Komitəsinin 75-ci sessiyası çərçivəsində bir sıra ikitərəfli görüşlər də keçirib.

İlk olaraq Teymur Musayevin ÜST-nin Avropa üzrə regional direktoru Hans Henri Klüge ilə görüşü baş tutub. Görüş zamanı nüfuzlu səhiyyə qurumları, o cümlədən ÜST ilə yüksək səviyyəli əlaqələrin mövcudluğu xüsusi vurğulanıb.

İslandiyanın sabiq Baş naziri, ÜST-nin Pan-Avropa Səhiyyə və İqlim Komissiyasının sədri xanım Katrin Yakobsdottir ilə görüşdə ötən il COP29 kimi mötəbər tədbirin Azərbaycanda ən yüksək səviyyədə təşkil edildiyi bildirilib. Eyni zamanda, COP29 zamanı iqlimə yönəlmiş səhiyyə təşəbbüslərinə Azərbaycanın dəstəyi yüksək qiymətləndirilib.

Tədbir panel sessiyalarda müxtəlif mövzular ətrafında müzakirələrlə davam etdirilib. O cümlədən, «Sağlam həyatın sağlam başlanğıcı: 2026-2030-cu illərdə ÜST-nin Avropa regionunda uşaqların və yeniyetmələrin sağlamlığının və rifahının mühafizəsi strategiyası», «2025-2030-cu illərdə ÜST-nin Avropa regionunda ictimai səhiyyənin maraqları üçün innovasiyaların istifadəsi strategiyası» və «Qocalmaq həyatdır: 2026-2030-cu illərdə ÜST-nin Avropa regionunda həyatın hər mərhələsində insanların sağlamlığının və rifahının təmin olunması strategiyası» kimi 3 proqram sənəd müzakirə olunub.

# Azərbaycanın Səhiyyə Nazirliyində TİKA-nın rəhbərliyi ilə görüş keçirilib

**Səhiyyə Nazirliyində Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) sədri Abdullah Erenin rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana işgüzar səfəri çərçivəsində görüş keçirilib.**



Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, görüş zamanı iki qardaş dövlət arasında çoxtərəfli əməkdaşlıq münasibətlərinin uğurlu inkişafı, habelə səhiyyə sahəsində əməkdaşlıq və birgə layihələrin reallaşması ətrafında səmərəli fikir mübadiləsi aparılıb.

Qonaqları salamlayan səhiyyə naziri Teymur Musayev vurğulayıb ki, Azərbaycan - Türkiyə əməkdaşlığı bütün sahələrdə olduğu kimi, səhiyyə və tibb elmi sahəsində də nümunəvidir. Nazirin sözlərinə görə, Azərbaycanda tibbin bütün sahələri üzrə peşəkar kadrların yetişdirilməsində qardaş ölkənin tibbi mərkəzlərində çalışan mütəxəssislərin müstəsna xidmətləri var.

Diqqətə çatdırılıb ki, 44 günlük Vətən müharibəsi iştirakçılarının postmüharibə dövründə psixoloji pozuntularının aradan qaldırılması, xəsarət almış şəxslərin cəmiyyətə yenidən inteqrasiyası, onların sosial reabilitasiyası məsələləri daim dövlətimizin diqqətindədir. Belə ki, veteranlarımıza proaktiv psixoloji və tibbi yardım göstərmək üçün türkiyəli peşəkar mütəxəssislər Səhiyyə Nazirliyinin dəvəti ilə Azərbaycana gəliblər. Onlar bilik və təcrübələrini yerli mütəxəssislərlə bölüşərək, ehtiyacı olan şəxsləri müayinə və müalicə ediblər.

TİKA-nın rəhbərliyinin iştirakı ilə Səhiyyə Nazirliyinin 2 nömrəli Bakı Baza Tibb Kollecində Əczaçılıq Tədris Laboratoriyasının açılışının mahiyyətini vurğulayan Teymur Musayev deyib: «İki qardaş ölkənin gələcəyi olan gənclərin daha yaxşı təhsil almaları üçün yaradılmış tədris laboratoriyası tələbələrin praktik təlim imkanlarını genişləndirəcək. Eyni zamanda, əczaçılıq sahəsində müasir və keyfiyyətli təhsil mühitinin formalaşmasına xidmət edəcək».

Səmimi qəbula görə təşəkkürünü bildirən TİKA-nın sədri Abdullah Eren vurğulayıb ki, möhkəm təməllər üzərində dayanan Azərbaycan - Türkiyə qardaşlıq münasibətləri birlik və həmrəyliyimizin bariz göstəricisidir. TİKA-nın sədri səhiyyə sahəsində ölkələrimiz arasında sıx əlaqələrin mövcudluğunu diqqətə çatdırıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Ağciyər xəstəliklərinin müasir diaqnostika və müalicə üsulları müzakirə olunub

**Ümumdünya Ağciyər Sağlamlığı Günündə Səhiyyə Nazirliyi Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu tərəfindən təşkil edilmiş beynəlxalq elmi-praktiki konfrans keçirilib. Tədbirdə ağciyər xəstəliklərinin müasir diaqnostika və müalicə üsulları, bu sahədə elmi yeniliklər və beynəlxalq əməkdaşlığın inkişafı mövzuları müzakirə olunub.**






AZƏRTAC xəbər verir ki, konfransda çıxış edən səhiyyə nazirinin müavini Nadir Zeynalov ağciyərin insan orqanizmində həyati vacib orqan olduğunu deyib, bildirib ki, təmiz hava ilə nəfəs almaq, daha sağlam ağciyərlərlə yaşamaq uzun ömür sürməyə imkan verir. O, vətəndaşların ağciyər xəstəlikləri, onların səbəb və nəticələri ilə bağlı maarifləndirilməsi tədbirlərinin tibb işçilərinin üzərinə düşdüyünü qeyd edib: «Ekoloji amillər, tütünçəkmə kimi zərərli vərdişlər ağciyərlərin sağlamlığına mənfi təsir edir. Səhiyyə işçilərinin görə biləcəkləri profilaktik işlərdən başqa, tibbi tədbirlər də var. Bunlardan biri ağciyər xəstəliklərinin erkən diaqnostikasıdır. Digər məsələ inhalyasyon dərmanların əlçatanlığıdır. Bir çox ağciyər xəstəliklərinin müalicəsində istifadə olunan həmin dərmanlar effektiv olsalar da, qiyməti çox bahadır. Onların əlçatanlığında müəyyən çətinliklər var. Ona görə də bu istiqamətdə işlər görməliyik».

Milli Məclisin deputatı, Səhiyyə komitəsinin üzvü Soltan Məmmədov çıxışı zamanı bu ilin ən vacib tədbirlərindən birinin Milli Məclisdə vərəmlə mübarizəyə həsr edilən dinləmənin keçirilməsi olacağını vurğulayıb. Deputatın sözlərinə görə, bu, bir daha göstərir ki, parlament səhiyyənin inkişafını davamlı olaraq dəstəkləməyə hazırdır: «İstənilən sahədə əldə olunan uğurlar ölkəmizin Prezident İlham Əliyevin rəhbərliyi altında həm sosial, həm iqtisadi, həm də humanitar istiqamətdə inkişafının bariz nümunəsidir. Xüsusilə səhiyyəmizin inkişafında uğurlar göz qarşısındadır. Milli Məclis səviyyəsində də davamlı olaraq qanunvericilik bazasının təkmilləşdirilməsi, vərəmlə mübarizədə lazım olan tədbirlərin görülməsi üçün işlər aparılır. Müvafiq qurumların gördüyü işlərlə bərabər, Milli Məclis də tələb olunan bütün qanun dəyişikliklərini etməyə hazırdır».

Azərbaycanda ağciyər xəstəlikləri ilə mübarizə sahəsində inkişaf olduğunu deyən Milli Məclisin deputatı, Səhiyyə komitəsinin üzvü Pərvanə Vəliyeva bildirib ki, vərəmlə mübarizədə görüləcək işlərin yüksək səviyyəyə çatdırılması, xidmətin təkmilləşdirilməsi üçün layihələr həyata keçirilir. Qeyd olunub ki, həmin məqsədlə 32 kənd həkim məntəqəsinin istifadəyə verilməsi nəzərdə tutulur. Vərəmlə mübarizə tədbirlərinə innovasiyalar və yeniliklər daxil edilib: «Burada gizli aşkarlanma, erkən diaqnostika, güclü qanunvericilik, dayanıqlı idarəetmə və multisektoral yanaşma olmalıdır. Vərəmlə mübarizə aparmaq üçün normativ hüquqi aktlar güclü olmalı, qanunvericilik günün tələblərinə cavab verməlidir. Sosial xidmətlər vərəm xəstələri üçün əlçatan olmalı, tibb işçilərinin sosial təminatı gücləndirilməlidir. Sevindiricidir ki, vərəmlə mübarizədə nailiyyətlər əldə olunub. Ölkəmizdə MDB məkanında ilk və tək beynəlxalq statuslu Ümumdünya Səhiyyə Təşkilatı ilə əməkdaşlıq mərkəzi açılıb. Bu günə qədər ölkəmizin vərəmlə mübarizə təcrübəsini 23 ölkədən 200-dən çox mütəxəssis öyrənib».

TƏBİB-in icraçı direktorunun müavini Anar İsrafilov vərəmlə mübarizənin dünyada aktual problemlərdən biri olduğunu, Ümumdünya Səhiyyə Təşkilatının, bir çox təşkilat və dövlətlərin səylərinə baxmayaraq, gündəlik 4000-4500 xəstənin həmin xəstəlikdən həyatını itirdiyini, onlardan 600-700-nün uşaqlar olduğunu diqqətə çatdırıb: «Bu, problemin miqyasını göstərir, bizi daha əzmlə və mütəşəkkil çalışmağa sövq edir».

Ölkəmizdə vərəmlə mübarizə tədbirlərindən bəhs edən Anar İsrafilov müsbət nəticələrin də müşahidə edildiyini bildirib: «Sumqayıtda xəstələrin dərmanları birbaşa evlərinə çatdırılır və videokonfrans vasitəsilə qeydə alınır. Bu da yoluxmanın qarşısının alınması üçün çox önəmlidir. Müayinələrin yerlərdə profilaktik qurğularla aparılmasını planlayırıq. Xəstəliyin aradan qaldırılmasında mütəşəkkillik çox vacibdir».

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müşaviri Nelli Veysova 2021-ci ildən ölkə ərazisində icbari tibbi sığortanın tətbiq edildiyini və bu gün də prosesin uğurla davam etdiyini bildirib: «Bu gün Xidmətlər Zərfində 3315-dən artıq xidmət mövcuddur ki, onlar arasında ağciyər xəstəliklərinin müayinəsi, müalicəsi və profilaktikasına aid xidmətlər də yer alıb».

Tədbir təqdimatlar və mövzular ətrafında müzakirələrlə davam edib.

Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktoru, tibb üzrə fəlsəfə doktoru İradə Axundova mətbuata açıqlamasında deyib ki, Azərbaycanda Vərəmə nəzarət üzrə Milli Strateji Plan üzərində iş gedir. Həmin plan vərəmlə mübarizədə 2026-2030-cu illər üzrə əsas tədbirləri əhatə edəcək.

O bildirib ki, Milli Məclisin Səhiyyə komitəsində vərəm mövzusu ilə əlaqədar dinləmələr planlaşdırılır. Həmin dinləmədə vərəmlə mübarizədə əldə edilən nailiyyətlərlə yanaşı, bu yolda qarşıya çıxan çətinliklər və problemlərdən də söhbət açılacaq.

«Hər birimiz Prezident İlham Əliyevin Böyük Qayıdış proqramının iştirakçısıyıq. Səhiyyə Nazirliyinin nəzdində olan elmi tədqiqat institutları da nazirin göndərişi və tövsiyəsi ilə Qarabağ və Şərqi Zəngəzurda məskunlaşan sakinlərin tibbi müayinəsini aparır. Biz də azad edilmiş ərazilərdə əhalinin ağciyər müayinəsini həyata keçiririk. Belə ki, o torpaqlara böyük komanda və avadanlıqlarla yollanır, sakinlərin şikayətlərini dinləyib onlara kömək edirik. İndiyə kimi 5 rayonda bu cür müayinələr aparılıb. Növbəti belə aksiyada Xankəndidə məskunlaşan sakinlərə 21 nəfərlik heyətlə tibbi xidmət göstərəcəyik», - deyə İradə Axundova fikirlərini tamamlayıb.

# Bakıda «Medinex 2025» sərgisinin açılış mərasimi keçirilib





**Bakıda Azərbaycanın səhiyyə sahəsində mühüm tədbirlərdən olan 27-ci Azərbaycan Beynəlxalq Tibb İnnovasiyaları Sərgisinin («Medinex 2025») açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, açılış mərasimində Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov «Medinex 2025» sərgisinin Azərbaycanda keçirilməsinin çox yaxşı ənənəyə çevrildiyini deyib: «Bu sərgidə ölkəmizin səhiyyə sahəsində çalışan yüksəkixtisaslı mütəxəssisləri iştirak edirlər. Tədbir həm peşəkarlar, həm də ümumilikdə səhiyyə sistemimiz üçün son dərəcə faydalıdır».

O qeyd edib ki, icbari tibbi sığortanın tətbiqinə başlanması ölkəmizdə uzun və mürəkkəb bir proses olub. «Bu gün aparılan uğurlu islahatlar, həyata keçirilən məqsədyönlü addımlar və ölkəmizdəki iqtisadi inkişaf sayəsində biz icbari tibbi sığortanı tətbiq edə bilmişik», - deyə komitə sədri vurğulayıb.

Əhliman Əmiraslanov, eyni zamanda, bildirib ki, gələcəkdə məqsəd ambulator müalicədə olan xəstələrin də dərman preparatları ilə təmin olunmasıdır. «Bu sahədə məqsədyönlü, ardıcıl iş aparılır və nəticələri yaxın gələcəkdə daha aydın görünəcək», - deyə o diqqətə çatdırıb.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin (İTSDA) İdarə Heyətinin sədri Zaur Əliyev Azərbaycanda son illər səhiyyə sahəsində geniş islahatların həyata keçirildiyinə diqqət çəkib: «Bu islahatların nəticəsi olaraq, artıq hər il 5 milyondan çox vətəndaş icbari tibbi sığortadan yararlanır». O deyib ki, böyük maliyyə vəsaiti tələb edən tibbi xidmətlər də Xidmətlər Zərfinə daxil edilib. Bu da əhalinin keyfiyyətli tibbi yardıma əlçatanlığını xeyli artırıb. Yaxın illərdə isə yeni tibbi xidmətlərin icbari tibbi sığorta ilə qarşılanması planlaşdırılır.

Zaur Əliyev həmçinin vurğulayıb ki, «Medinex 2025» sərgisi artıq səhiyyə sektorunda çox vacib platformaya çevrilib. «Bu sərgi özəl sektor ilə dövlət müəssisələri arasında əməkdaşlığın gücləndirilməsinə, yeni tərəfdaşlıqların qurulmasına və təcrübə mübadiləsinə ciddi töhfə verir. İnanıram ki, belə tədbirlər gələcəkdə də səhiyyə sistemimizin inkişafına mühüm töhfə verməyə davam edəcək», - deyə o diqqətə çatdırıb.

Səhiyyə nazirinin müavini Rasim İsmayılov vurğulayıb ki, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın əhalinin sağlamlığının qorunmasına göstərdikləri xüsusi diqqət və qayğının nəticəsidir ki, ölkəmizdə müasir səhiyyə infrastrukturu yaradılır, tibb müəssisələri ən son texnoloji avadanlıqlarla təchiz olunur və maddi-texniki baza gücləndirilir.

O deyib ki, «Medinex 2025» sərgisi səhiyyə sahəsində yeni əməkdaşlıqlar üçün mühüm platformadır. «Səhiyyə Nazirliyi olaraq hesab edirik ki, «Medinex 2025» sərgisi səhiyyə mütəxəssislərinin yeniliklərlə tanışlığı, mövcud tərəfdaşlıqların inkişafı, yeni əməkdaşlıqların qurulması baxımından mühüm platformadır və bu tədbir milli səhiyyə sisteminin innovativ inkişafına töhfə verir», - deyə nazir müavini vurğulayıb.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) icraçı direktoru Vüqar Qurbanov Azərbaycanda səhiyyə sahəsində son illər aparılan islahatların xidmətlərin keyfiyyətinin artırılmasına, əhalinin sağlamlığının qorunmasına və tibbi xidmətlərin daha əlçatan olmasına yönəldiyini diqqətə çatdırıb: «Bu inkişafın əsasını tibb elmi ilə yanaşı, innovasiyalar və rəqəmsal texnologiyaların tətbiqi təşkil edir. Müasir texnologiyalar səhiyyədə daha çevik, səmərəli və şəffaf idarəetmə sistemlərinin formalaşmasına, pasiyent məmnuniyyətinin artmasına xidmət edir». O qeyd edib ki, «Medinex 2025» sərgisi bu baxımdan çox vacib platformadır. «Sərgi səhiyyə mütəxəssisləri, avadanlıq istehsalçıları, investorlar və akademik dairələr arasında bilik və təcrübə mübadiləsini təmin edir, yeni əməkdaşlıqların yaranmasına imkan verir. TƏBİB-in fəaliyyətində innovasiya və rəqəmsallaşma əsas prioritetlərdəndir. Yeni Klinika və Nizami Tibb Mərkəzinin HIMSS beynəlxalq sertifikatını əldə etməsi bunun bariz nümunəsidir. Bu, səhiyyəmizin beynəlxalq standartlara uyğun texnoloji səviyyəyə çatdığını göstərir. Həmçinin vətəndaşlar şəxsi kabinet və «e-təbib» tətbiqi vasitəsilə laborator nəticələrini onlayn izləyə bilirlər. Bu, idarəetmədə şəffaflığı və qərarların dəqiqliyini artırır», - deyə Vüqar Qurbanov əlavə edib.

«Caspian Event Organisers»in Baş direktoru Fərid Məmmədov isə «Medinex» sərgisinin artıq regionun tanınmış səhiyyə platformalarından birinə çevrildiyini deyib: «Builki sərgidə Azərbaycan şirkətləri ilə yanaşı, Belarus, Cənubi Koreya, Çin, Misir, Özbəkistan, Polşa, Qazaxıstan, İtaliya, Rusiya, Türkiyə və Ukraynadan gəlmiş şirkətlər iştirak edir».

O vurğulayıb ki, Səhiyyə Nazirliyinin sərginin təşkilinə verdiyi dəstək yüksək səviyyədə olub. «Tərəfdaşların bu sərginin inkişafına göstərdikləri qayğı onu ildən-ilə inkişaf etdirir», - deyə Baş direktor diqqətə çatdırıb.

Daha sonra iştirakçılar sərginin stendlərini gəziblər.

Qeyd edək ki, «Medinex 2025» sərgisi səhiyyə üzrə peşəkarları, tibb müəssisələrinin rəhbərlərini, sahibkarları, distribütorları və investorları bir araya gətirir. Dövlətin səhiyyə sisteminin modernləşdirilməsinə yönəlmiş islahatları, bu sahənin son illərdə dinamik inkişaf mərhələsinə qədəm qoyması və tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi fonunda keçirilən «Medinex» sərgisi oktyabrın 30-dan noyabrın 1-dək davam edəcək.

# Azərbaycan səhiyyəsində növbəti tarixi uğur: meyit donorun ürəyi transplantasiya edildi

**Azərbaycanda ilk dəfə olaraq meyit donorun ürəyi transplantasiya edilib. Bu barədə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Mərkəzi Klinikanın birgə məlumatında xəbər verilib.**



Məlumatda bildirilir: «Azərbaycan səhiyyəsi tarixi inkişaf dövrünü yaşayır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən səhiyyə sahəsində aparılan ardıcıl, sistemli və əsaslı islahat tədbirləri nəticəsində ölkə səhiyyəsi yeni tarixi tərəqqi mərhələsinə qədəm qoyub. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüskarı və dəstəkçisi olduğu layihələr sektorun çoxşaxəli inkişafına mühüm töhfələr verib».

Məlumatda qeyd edilib ki, Səhiyyə Nazirliyinin Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinə Sabunçu Tibb Mərkəzində müalicə olunan pasiyentə beyin ölümü diaqnozunun qoyulması barədə məlumat daxil olub: «Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzi tərəfindən dərhal orqan donorluğu və transplantasiyası prosesinin təşkili və əlaqələndirilməsi üzrə aidiyyəti tədbirlər həyata keçirilib.

Beyin ölümü diaqnozu təsdiqləndikdən sonra mərhumun ailəsi yüksək humanizm nümunəsi göstərərək orqanları bağışlamağa razılıq verib. Bununla da Qafqaz regionunda ilk dəfə olaraq meyit donorun ürəyi transplantasiya edilib.

Ürək transplantasiyası əməliyyatı Mərkəzi Klinikada baş həkim, professor Kamran Musayevin rəhbərlik etdiyi ixtisaslı tibbi heyət tərəfindən yüksək peşəkarlıqla icra olunub. Meyit donorun ürəyi 2006-cı il təvəllüdlü Tovuz rayon sakininə köçürülüb.

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi donorun yaxınlarına nəcib davranışlarına görə minnətdarlığını bildirir, peşə vəzifələrini yüksək səviyyədə icra etmiş tibb mütəxəssislərinə təşəkkür edir, gələcək fəaliyyətlərində uğurlar arzulayır».

Ürək transplantasiyası əməliyyatını icra edən professor Kamran Musayev AZƏRTAC-a açıqlamasında bildirib ki, meyit donorun ürəyinin köçürüldüyü 2006-cı il təvəllüdlü Tovuz rayon sakininin hazırda vəziyyəti keçirdiyi əməliyyata uyğun olaraq kafidir.

Kamran Musayev xatırladıb ki, Prezident İlham Əliyev tərəfindən 2020-ci ildə imzalanmış «İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında» Qanun qəbul edildikdən sonra Azərbaycanda meyitdən donor kimi istifadə edilməyə rəsmi şəkildə icazə verilib: "Orqan donorluğu və transplantasiyası prosesinin təşkili və əlaqələndirilməsi istiqamətində Səhiyyə Nazirliyi uzun illərdir ki, iş aparırdı. Biz də həmçinin ürək transplantasiyasının həyata keçirilməsi üzərində işləyirdik. Bütün komandamızın üzvləri bu prosesə hazır idi. Əməliyyatın icrasında 20 nəfərə yaxın tibbi heyət iştirak etdi. Bu kifayət qədər kompleks şəkildə icra edilmiş bir əməliyyat idi».

Mərkəzi Klinikanın baş həkimi bu humanist addım üçün donorun ailəsinə təşəkkür edib. Bu qərarın 19 yaşlı gənc bir oğlanın həyatını davam etdirməsinə səbəb olduğunu deyib.

# ATU-da Mustafa Topçubaşovun 130 illik yubileyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib

**Azərbaycan Tibb Universitetində (ATU) görkəmli alim, tanınmış cərrah və böyük ictimai xadim, akademik Mustafa Topçubaşovun anadan olmasının 130 illik yubileyinə həsr olunmuş «Mustafa Topçubaşov: Akademik irs - 130» mövzusunda elmi-praktik konfrans təşkil edilib.**



AZƏRTAC xəbər verir ki, Səhiyyə Nazirliyi və Azərbaycan Tibb Universitetinin birgə təşkilatçılığı ilə keçirilən tədbirin açılış mərasimi Azərbaycanın Dövlət Himninin səsləndirilməsi və Vətən uğrunda şəhid olmuş qəhrəmanların xatirəsinin anılması ilə başlayıb.

Konfransda çıxış edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli tədbirin yalnız böyük alimin xatirəsinə ehtiram deyil, həm də Azərbaycan tibb elminin və təhsilinin inkişafına sadiqliyin təntənəsi olduğunu qeyd edib: «Prezident İlham Əliyevin Mustafa Topçubaşovun yubileyinin qeyd edilməsi ilə bağlı imzaladığı Sərəncam bu tədbirə xüsusi simvolik məna qazandırır. Həmin Sərəncam bir tərəfdən ölkəmizdə elmə və alimə verilən qiymətin, digər tərəfdən isə milli yaddaşın, elmi irsin qorunmasına göstərilən dövlət qayğısının bariz nümunəsidir».

Rektor böyük alimin təşəbbüsü ilə tibb təhsilində həyata keçirilən islahatlar, praktik biliklərin önə çəkilməsi, innovativ tədris metodlarının tətbiqi istiqamətində görülən işlərin bu gün də Azərbaycan Tibb Universitetinin tədris sistemində mühüm yer tutduğunu vurğulayıb.

Tədbirdə çıxış edən səhiyyə nazirinin müavini Nadir Zeynalov bu böyük şəxsiyyət barədə öz müəllimlərindən çox eşitdiyini deyib: «Mən Mustafa bəyin əməliyyatları, oxuduğu mühazirələr, cərrahiyyə elminə və tədrisinə gətirdiyi yeniliklər, tətbiq etdiyi innovasiyalar barədə onun tələbələri olmuş müəllimlərimdən çox eşitmişəm. O, öz həyatı, elmi yaradıcılığı və yorulmaz fəaliyyəti ilə Azərbaycanda bir məktəb yaradıb».

Bu məktəbin məzunlar yetişdirməkdə davam edəcəyinə inandığını deyən Nadir Zeynalov konfransın işinə uğurlar arzulayıb və tədbirin səmərəli keçəcəyinə əminliyini ifadə edib.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İradə Hüseynova çıxışında bildirib ki, Mustafa Topçubaşovun yaratdığı elmi məktəb öz yetirmələrinin cərrahiyyənin təməl biliklərinə mükəmməl bələd olmaları, təbabət elmində mühüm yeniliklərə imza atmaları ilə fərqlənir. Topçubaşovun milli səhiyyə sisteminin qurulmasındakı fəaliyyətinə toxunan İradə Hüseynova onun 1926-cı ildə Almaniyaya təcrübə keçməyə göndərildiyini, oradan qayıtdıqdan sonra əldə etdiyi təcrübə əsasında Bakı şəhərindəki xəstəxanalardan birində cərrahi yardım göstərən ilk elmi-metodik mərkəz yaratdığını diqqətə çatdırıb. Qeyd edib ki, görkəmli alim Azərbaycan Elmlər Akademiyasının yaradılmasında da mühüm rol oynayıb və uzun illər bu elm ocağının vitse-prezidenti olub.

Sonra Azərbaycan Tibb Universitetinin Elmi işlər üzrə prorektoru, professor Məlahət Sultan görkəmli alimin çoxşaxəli həyat və fəaliyyətindən söz açıb: «86 ildən çox mənalı bir ömür sürən akademik M.Topçubaşov öz fəaliyyəti ilə göstərdi ki, elm onun qanında, ruhunda idi. Bu ruh isə Azərbaycan xalqının özünəxas, heç kimin əlindən ala bilməyəcəyi bir xəzinəsidir. Onun timsalında bu zəka və fədakarlıq bütöv bir millətin elmi kimliyini təcəssüm etdirirdi. Topçubaşovlar nəslinin Azərbaycanın tarixində, dövlətçiliyində, taleyüklü məsələlərdə əhəmiyyətli yeri var. Bu şərəfli nəslin kökü XV-XVI əsrlərdə qədim türk torpağı olan İrəvanda təşəkkül tapıb. Peterburq Universitetinin professoru Mirzə Cəfər Topçubaşov və Azərbaycan Demokratik Respublikası Parlamentinin sədri Əlimərdan bəy Topçubaşov da həmin kökə mənsubdurlar».

Çıxışlarda Mustafa Topçubaşovun Azərbaycan tibb elminin banilərindən biri, cərrahiyyə məktəbinin yaradıcısı olduğu, tibb təhsilində islahatçı şəxsiyyət kimi tanındığı vurğulanıb. Qeyd olunub ki, alimin rəhbərliyi ilə aparılan tədqiqatlar bu gün də öz aktuallığını qoruyur, onun ideyaları isə gənc nəsil tibb mütəxəssisləri üçün elmi və mənəvi örnək olaraq qalır. Həmçinin Topçubaşovun tibbi ədəbiyyatın milli dildə hazırlanması təşəbbüsü, praktik biliklərin tədrisdə əsas yer tutması və tələbələrin klinik təcrübəyə cəlb olunması istiqamətində gördüyü mühüm işlər yada salınıb.

Tədbirin davamında musiqiyə də yer verilib. Görkəmli alimin oğlu, tibb elmləri doktoru, professor, eyni zamanda, bir çox sevilən mahnıların bəstəkarı İbrahim Topçubaşovun kompozisiyaları Xalq artisti Samir Cəfərov tərəfindən səsləndirilib.

Topçubaşovlar ailəsi adından Mərkəzi Klinikanın baş direktorunun müavini, Əməkdar həkim Ceyhun Topçubaşov çıxış edərək böyük alimin xatirəsinə göstərilən ehtirama görə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya, həmçinin tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirib.

Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli Ceyhun Topçubaşova universitet adından xatirə hədiyyəsi təqdim edib.

Daha sonra ikigünlük elmi-praktik konfrans öz işini aktual mövzularda panel sessiyaları ilə davam etdirib.

# Səhiyyə Nazirliyinin nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasında aparılan səhiyyə islahatları ilə tanış olub

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin nümayəndə heyəti səhiyyə infrastrukturunun inkişafı, tibbi xidmətlərin keyfiyyətinin artırılması və yeni yaradılan tibb müəssisələrinin fəaliyyəti ilə yerində tanış olmaq məqsədilə Naxçıvan Muxtar Respublikasına işgüzar səfər edib.**





İki gün davam edən səfər çərçivəsində əvvəlcə nümayəndə heyəti Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucalan abidəsini ziyarət edib, önünə güllər düzüb, xatirəsinə ehtiramlarını bildirib.

Nümayəndə heyəti Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi altında Naxçıvanda tibb sahəsində həyata keçirilən islahatlar çərçivəsində xroniki böyrək çatışmazlığından əziyyət çəkən pasiyentlərə göstərilən tibbi xidmətin vahid mərkəzdən və müasir səviyyədə təşkili məqsədilə yaradılan Naxçıvan Muxtar Respublikası Hemodializ Mərkəzinin açılışında iştirak edib.

Eyni zamanda, şəhid ailələrinin və müharibə iştirakçısı olan veteranların sosial və psixoloji rifahının gücləndirilməsi, onların psixoloji reabilitasiyasına sistemli şəkildə dəstək göstərilməsi məqsədilə yaradılan Naxçıvan Muxtar Respublikası Psixoloji Sağlamlıq Mərkəzi və Təcili Tibbi Yardım Xidməti ilə tanışlıq olub.

Tədbirlərdə Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasındakı səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov və Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Samiq Sadıxov iştirak ediblər.

Hemodializ Mərkəzində yaradılan şəraitlə tanışlıq zamanı bildirilib ki, müasir tibbi avadanlıqlarla təchiz olunmuş müəssisədə pasiyentlərə komfortlu şəraitdə xidmət göstərilməsi üçün bütün imkanlar yaradılıb. Həmçinin Mərkəzin yaradılma məqsədi, tikinti və texniki təchizat işləri, eləcə də gələcək fəaliyyət istiqamətləri barədə geniş məlumat verilib.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Psixoloji Sağlamlıq Mərkəzində şəhid və veteran ailələrinə psixoloji yardım və reabilitasiya xidmətləri, habelə fərdi və qrup terapiyası otaqları fəaliyyət göstərəcək.

Eyni zamanda, bildirilib ki, Təcili Tibbi Yardım Xidmətinin mövcud avtomobil parkı müasir avadanlıqlarla təchiz olunub.

Nümayəndə heyətinə muxtar respublikada səhiyyə sisteminin modernləşdirilməsi istiqamətində həyata keçirilən kompleks tədbirlər və dövlət proqramları çərçivəsində icra olunan layihələr barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilmiş «Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı» çərçivəsində bir sıra mühüm layihələr icra olunur.

Qonaqlar Treninq və Simulyasiya Mərkəzinin fəaliyyəti, habelə Ağız və Diş Sağlamlığı Mərkəzində aparılan təmir-tikinti işləri ilə tanış olublar.

Səfər çərçivəsində Babək rayonu üzrə Qahab, Culfa rayonu üzrə Əbrəqunus, Ordubad rayonu üzrə Vənəd və Dəstə Kənd Ailə Sağlamlıq Mərkəzlərində yaradılan şəraitə baxış keçirilib.

Nümayəndə heyəti səfər çərçivəsində yeni Naxçıvan Səhiyyə Kompleksi layihəsi ilə tanış olub. Kompleks çərçivəsində pediatriya, cərrahiyyə, reanimasiya, fizioterapiya və digər ixtisaslaşmış tibbi xidmətlərin vahid məkanda, müasir standartlara uyğun şəkildə təşkili nəzərdə tutulur.

İstismara verilməyə hazırlanan Oksigen İstehsalı Müəssisəsi ilə də tanışlıq olub. Qeyd edilib ki, müəssisədə oksigenin istehsalı, tibb müəssisələrinə çatdırılması və təhlükəsizliyə nəzarət proseslərinin müasir tələblərə uyğun təşkili nəzərdə tutulur.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Dəstək və Çağrı Mərkəzləri, Əziz Əliyev adına Mərkəzi Uşaq Xəstəxanası, İctimai Səhiyyə Xidmətinə baxış keçirilib, müəssisələrin ümumi vəziyyəti, tibbi xidmətin təşkili və burada yaradılan şəraitlə tanışlıq olub.

Sonda Naxçıvan Muxtar Respublikasında səhiyyə sisteminin müasirləşdirilməsi və infrastrukturun inkişafı istiqamətində görülən işlər ətrafında fikir mübadiləsi aparılıb.







## AŞAĞIDAKI TİBB MÜƏSSİSƏSİ GÖSTƏRİLƏN VAKANT YERƏ MÜSABİQƏ ELAN EDİR

### Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu

**Terapiya kafedrası**
Professor – 0.5
Dosent – 1.0
Assistent – 0.5

**Nefrologiya kafedrası**
Dosent – 1.0

**Səhiyyənin təşkili və menecmenti kafedrası pedaqogika kursu ilə**
Baş müəllim – 0.5

**Əczaçılıq kafedrası**
Baş müəllim– 1.0

**Anesteziologiya və reanimatologiya kafedrası**
Dosent – 1.0

**Nevrologiya və klinik neyrofiziologiya kafedrası**
Dosent – 1.0

**Məhkəmə təbabəti və patoloji anatomiya kafedrası**
Dosent – 0.5

**Hematologiya kafedrası**
Dosent – 1.5

**Stomatologiya və üz-çənə cərrahiyyəsi kafedrası**
Dosent – 2.0
Assistent – 0.5

**Pediatriyakafedrası**
Dosent – 2.5

**Oftalmologiya kafedrası**
Assistent– 1.0

**Kliniki laborator təbabəti kafedrası**
Assistent– 1.0

**Dermatovenerologiya kafedrası**
Assistent – 2

**Yoluxucu xəstəliklər kafedrası**
Assistent– 1.0

***Ünvan: Yasamal rayonu, Tbilisi pr., 3165-ci məh***
***Telefon: 431 – 01 – 82***

### V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu

***Mikrobiologiya üzrə elmi şöbənin Bakteriologiya və mikologiya bölməsi:***
Elmi işçi – 1.0

***İmmunologiya üzrə elmi şöbə:***
Elmi işçi – 1.0

***Ünvan: Mustafa bəy Topçubaşov küçəsi 216,***
***Telefon: 594-78-34***

## Ötən ay 37 aptekdə yoxlama aparılıb

**Bu ilin sentyabr ayı ərzində Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzi tərəfindən ümumilikdə 37 aptekdə yoxlama həyata keçirilib.**




Mərkəzdən verilən məlumata görə, həmin yoxlamalardan 9-u Bakıda, 28-i isə ölkənin digər şəhər və rayonlarında yerləşən apteklərdə aparılıb.

Aparılmış yoxlamalar nəticəsində 8 müxtəlif nöqsan aşkarlanıb və həmin hallarla bağlı İnzibati Xətalar Məcəlləsinin beş maddəsi üzrə 11 protokol tərtib edilib.

## Başsağlığı

Azərbaycan səhiyyəsinə və tibb elminə ağır itki üz vermişdir. Azərbaycanın görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının sabiq səhiyyə naziri, tibb elmləri doktoru, professor Oqtay Kazım oğlu Şirəliyev ağır xəstəlikdən sonra 75 yaşında vəfat etmişdir. "Tibb qəzeti"nin kollektivi bacarıqlı rəhbər, xeyirxah insan, nurlu şəxsiyyət

**OQTAY ŞİRƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə, yaxınlarına, Azərbaycanın səhiyyə ictimaiyyətinə dərin hüznlə başsağlığı verir.

«Tibb qəzeti»nin kollektivi Əbülfəz Abdullazadənin

**ANASININ**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

Baş redaktor:
N.MƏCİDOVA

Baş redaktorun müavini:
S.NƏBİYEVA

Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.

Təsisçi:
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.
Qeydiyyat nömrəsi: B92

Ünvan:
Həsən bəy Zərdabi küç., 96.
3-cü mərtəbə, 6-cı otaq

Tel./faks: (012) 596-06-61
E-mail: tibbqazeti@mail.ru
www.tibbqazeti.az

*Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər.*
*Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.*